## “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC

### 2023-cü il üzrə İdarəetmə Hesabatı

| Məlumatlar | Açıqlama |
|---|---|
| 2.1.1. emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi; | “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” Qapalı Səhmdar Cəmiyyəti<br><br>“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC<br>(VÖEN 1800354501, 11.01.2006, 0106-P194-44892) |
| | |
| 2.1.2. emitentin hüquqi ünvanı və olduğu yer; | Hüquqi ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Komsomol döngəsi 1A.<br>Fəaliyyət ünvanı: Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov küçəsi 28F, İnvestAZ Plaza |
| | |
| 2.1.3. emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | Hesabat ili ərzində emitentin adında dəyişiklik olmamışdır. |
| | |
| 2.1.4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yoxdur. |
| | |
| 2.1.5. emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati- hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və<br>qüvvədə olma müddəti; | Hesabat ili ərzində emitentin törəmə cəmiyyəti təsis edilməmişdir. |
| | |
| 2.1.6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent hər hansı şirkətlər qrupunun hissəsi deyil |
| | |
| 2.1.7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İnvestisiya şirkəti fəaliyyəti |
| | |
| 2.1.8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının qanununun 30-cu maddəsində göstərilmiş əsas və yardımçı investisiya xidmətləri, Müddətsiz |
| | |
| 2.1.9. emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Əsas investisiya xidmətləri üzrə: |

| | |
|---|---|
| | • qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;<br>• fərdi investorların portfelinin idarə edilməsi;<br>• investisiya məsləhətlərinin verilməsi;<br>• qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;<br>• qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;<br>• mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;<br>• marja ticarəti.<br><br>Yardımçı investisiya xidmətləri üzrə:<br>• müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;<br>• investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;<br>• qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;<br>• təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;<br>• əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi. |
| | |
| 2.1.10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | 31.03.2023 - 92 nəfər, 30.06.2023 - 94 nəfər, 30.09.2023 - 92 nəfər, 31.12.2023 - 96 nəfər |
| | |
| 2.1.11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | **Direktor**: Qurbanzadə Şəhriyar Ağazeynal oğlu.<br><br>**Müşahidə Şurası:**<br>Quliyev Elşən Qalib oğlu - sədr<br>Bağırov Orxan İbrahim oğlu - üzv<br>İmanova Ülkər Qalib qızı - üzv<br><br>**Audit Komitəsi:**<br>Bağırov Orxan İbrahim oğlu - sədr<br>İmanova Ülkər Qalib qızı - üzv<br>Quliyev Xanoğlan oğlu Nüsrət oğlu - üzv |
| | |
| 2.1.12. emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | 2 fiziki şəxs |

| | |
|---|---|
| 2.1.13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | • Quliyev Elşən Qalib oğlu, 980 səhm, 75.38%.<br>• Abdullayev Ceyhun Akif oğlu 320 səhm, 24.62% |
| | |

| | |
|---|---|
| 2.1.14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Yoxdur. |
| | |
| 2.1.15. emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | Hesabat ili ərzində 7 dəfə Səhmdarlarının Ümumi Yığıncağı keçirilmişdir. |
| | |
| 2.1.15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan),<br><br>2.1.15.2. ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 1. 23.01.2023, Bakı şəhəri<br>"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hər birinin nominal dəyəri 1,000 (bir min) ABŞ dolları olan 5,000 (beş min) ədəd adlı, faizli, sənədsiz, təminatsız istiqrazların emissiyası.<br><br>2. 31.01.2023, Bakı şəhəri<br>2022-ci maliyyə ili üzrə Maliyyə Hesabatlarının təsdiqi, bölüşdürülməmiş mənfəətin istifadəsi haqqında qərarın qəbul edilməsi.<br><br>3. 01.02.2023, Bakı şəhəri<br>Cəmiyyəti 2022-ci il üzrə maliyyə hesabatlarının təsdiq edilməsi, "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) Direktorunun təyin edilməsi.<br><br>4. 09.03.2023, Bakı şəhəri<br>Əlavə səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılması, Nizamnamə kapitalının artması ilə əlaqədar Cəmiyyətin 7-ci redaksiyada Nizamnaməsinin təsdiq edilməsi.<br><br>5. 19.04.2023, Bakı şəhəri"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hər birinin nominal dəyəri 1,000 (bir min) ABŞ dolları olan 5,000 (beş min) ədəd adlı, faizli, sənədsiz, təminatsız istiqrazların emissiyası.<br><br>6. 30.05.2023, Bakı şəhəri<br>"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra - Cəmiyyət) Nizamnaməsinə dəyişiklik edilməsi. Cəmiyyətin 8-ci redaksiyada Nizamnaməsinin təsdiq edilməsi.<br><br>7. 31.05.2023, Bakı şəhəri<br>"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının üzvlərinin səlahiyyət müddətinin uzadılması. |

| | |
|---|---|
| | |
| 2.1.16. emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): | |
| 2.1.16.1. investisiya qiymətli kağızın növü və forması; | Adi adlı sənədsiz səhm, adlı faizli sənədsiz təminatsız istiqraz |
| | |
| 2.1.16.2. investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | AZ2004019785 – 22.11.2021, AZ2005019784 – 04.05.2023 |
| | |
| 2.1.16.3. investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | 1300 ədəd səhm - 2308 manat, 3000 ədəd istiqraz - 1000 ABŞ Dolları, 5000 ədəd istiqraz - 1000 ABŞ Dolları |
| | |

| | |
|---|---|
| 2.1.16.4. investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri; | Səhmlər 3,000,400 manat, istiqrazlar 8,600,000 ABŞ Dolları |
| | |
| 2.1.16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); | Hesabat ili ərzində emitent tərəfindən 31.12.2022-ci il tarixinə yığılmış Bölüşdürülməmiş mənfəətin 554 350 AZN (beş yüz əlli dörd min üç yüz əlli manat) hissəsi təsisçilərin Cəmiyyət qarşısında borcu əvəzləşdirilməklə adi səhmlər üzrə divident şəklində ödənilmişdir. |
| | |
| 2.1.16.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi; | AZ2004019785 – 6.0%<br>AZ2005019784 – 6.7% |
| | |
| 2.1.16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | AZ2001019788 - Bakı Fond Birjası, Bakı, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A,<br>AZ2004019785 - birjadankənar,<br>AZ2003019786 - birjadankənar |
| | |
| 2.1.17. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: | yoxdur |
| | |
| 2.1.17.1. əqdin məbləği; | 0 |
| | |
| 2.1.17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | 0 |
| | |
| 2.1.18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi; | 20.12.2023 tarixində "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyəti ilə "İNVEST-AZ ASSET MANAGEMENT" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında dəyəri 289,965.53 AZN (iki yüz səksən doqquz min doqquz yüz altmış beş manat əlli üç qəpik) məbləğində "İnvestisiya xidmətlərinin göstərilməsi haqqında müqavilə bağlanılmışdır. "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC "İNVEST-AZ ASSET MANAGEMENT" MMC-nin Nizamnaməsində 49.6% paya sahibdir. |
| | |

| | |
|---|---|
| 2.1.19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 15.02.2024-cü il |
| | |
| 2.1.19. hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | MEAS |

**"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin**

**Direktoru:** Şəhriyar Qurbanzadə

**Baş mühasibi:** Şaban Qasımov

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyət
INVEST AZ
İnvestisiya Şirkəti
Azerbaijan Republic Closed Joint-Stock Company

**Tarix: 23.02.2024**